# Ağdam: ümidə açılan qapılar



**Regionların sosial-iqtisadi inkişafı dövlət siyasətində mühüm yerlərdən birini tutur. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyası uğurla davam etdirilir, iqtisadiyyatın möhkəmləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Ən əsası isə dövlət başçısı İlham Əliyevin fəaliyyətində əsas diqqət insan amilinin inkişafına, sosial problemlərin həllinə və vətəndaş cəmiyyətinin formalaşmasına yönəldilib. Uzun illər ərzində respublikamızda aparılmış səmərəli iqtisadi siyasət və iqtisadi islahatlar dönmədən həyata keçirilir. Məhz buna görə də əldə olunan uğurlar davamlı və sabitdir.**

Ərazisinin dörddə üç hissəsi Ermənistan tərəfindən işğal edilmiş rayonda son vaxtlar tikinti-quruculuq işlərinin həcmi xeyli artıb. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü, tövsiyə və tapşırığı əsasında aparılan yenidənqurma işləri sakinlərin dərin razılığına səbəb olur.

Bütün bu tövsiyə və tapşırıqları öz fəaliyyətində rəhbər tutan Ağdam Rayon İcra Hakimiyyəti aparatında bu həssas məsələyə yeni yanaşma və obyektivlik ön plana çəkilib. Fəaliyyətə başladığı ilk gündən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov mütəmadi olaraq əhali ilə görüşlər keçirir, onları narahat edən problemlərin həll edilməsinə var qüvvə ilə çalışır.

Quzanlı qəsəbəsində və ətraf kəndlərdə tikinti-quruculuq işləri davamlı xarakter alıb, yollar əsaslı təmir edilir, dini-mədəni abidələrə ikinci həyat verilir, yeni binalar inşa olunur, bir sözlə, hər tərəfdə səliqə-sahman yaradılır. Əmin-amanlıq adamların daha həvəslə çalışmasına, qurub-yaratmasına, yaxşı güzəran qurmasına münbit şərait yaradıb.

Ölkənin hər yerində inkişaf daha aydın duyulur. Həm ərazisinə, həm də əhalisinin sayına görə respublikanın ən iri rayonlarından hesab olunan, ön də, arxa da cəbhə olan Ağdamda son bir neçə il dirçəliş və tərəqqi dövrü kimi dəyərləndirilir. Qədim tarixi olan Ağdam həm iqtisadi, həm də mədəni ənənələr üzərində inkişaf edir.

Cəbhə xəttində yaşayan insanlara dövlət tərəfindən göstərilən diqqət və qayğı davamlı xarakter alıb, rayonda mütəşəkkillik, təşəbbüskarlıq, sabitlik hökm sürür.

Məhz buna görə də 2019-cu ildə Ağdam rayonunda ümumi məhsul istehsalının həcmi 170 milyon 592 min 580 manat olub. Bu, 2018-ci illə müqayisədə 3 milyon 751 min 780 manat və ya 2,2 faiz çoxdur. Ötən il 13 milyon 40 min manatlıq sənaye, 134 milyon 550 min 100 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, 7 milyon 586 manatlıq tikinti-quraşdırma işləri görülüb.

2019-cu ildə rayonda tikinti-quruculuq və abadlıq işləri geniş vüsətlə davam etdirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Birinci Yüzbaşılı kəndində 132 şagird yerlik yeni məktəb binası tikilərək istifadəyə verilib, təmas xəttinə yaxın olan yaşayış məntəqələrində erməni silahlı birləşmələrinin iriçaplı silahlardan və artilleriya qurğularından intensiv atəşə məruz qoyması nəticəsində zərər dəymiş 121 ev bərpa edilib, Kolqışlaq-Mirəşəlli-Əhmədağalı-Çıraqlı avtomobil yolu yenidən qurulub.

Tərtər-Hindarx avtomobil yolunun Ağdam rayonu ərazisindən keçən 14 kilometr hissəsi təmir olunub. Təzəkənd kəndində modul tipli məktəb binası quraşdırılıb. Xındırıstan kəndindəki məscid binası və məişət evində, Əhmədağalı kənd körpələr evi-uşaq bağçasında, ruhi əsəb və ağciyər xəstəlikləri dispanserlərində əsaslı təmir işləri aparılıb. Rayon ərazisindəki ümumtəhsil müəssisələrinin və uşaq bağçalarında istilik sistemlərinin qurulması, təbii qazla təmin olunması istiqamətində mühüm işlər görülüb. Qurban Pirimov küçəsində 1,6 kilometr uzunluqda yola asfalt örtüyü salınıb, ətrafı abadlaşdırılıb. Şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 20 ədəd fərdi ev tikilib istifadəyə verilib.

Xındırıstan kəndi ərazisində bir hektara yaxın ərazidə istirahət parkının tikintisinə başlanılıb. Parkın ərazisində mişarlanmış əhəng daşlarından hasarlar tikilmiş, hasarlar aqlay tavalarla və mozaika daşları ilə üzlənmiş, parkın ərazisində fəvvarəli hovuz, piyadaların hərəkəti üçün tamet tavalarla döşənmiş səkilər, sakinlərin istirahəti üçün oturacaqlar, müasir memarlıq üslubunda quraşdırılan besetkalar quraşdırılmış, parkda gecə işıqlandırmalarının quraşdırılması işləri davam edir.

Xındırıstan kəndi ərazisində mərkəzi yolun kənarında ulu öndər Heydər Əliyevin 1981-ci ildə açılışında iştirak etdiyi bulağın ərazisinin genişləndirilərək istirahət guşəsinin yaradılması nəzərdə tutulub.

Ağdam rayonunun təmas xəttinə yaxın olan yaşayış məntəqələrinin erməni silahlı birləşmələrinin iriçaplı silahlardan və artilleriya qurğularından intensiv atəşə məruz qalması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması istiqamətində işlərin davam etdirilməsi məqsədilə 19 yaşayış məntəqəsində mülki əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 139 ailənin yaşadığı 121 fərdi yaşayış evinin bərpası məqsədilə Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2018-ci il tarixli Sərəncamına əsasən Prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına ziyan çəkmiş 121 fərdi yaşayış evlərinin bərpası tam başa çatdırılıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun Birinci Yüzbaşılı kəndində 132 şagird yerlik yeni məktəb binası tikilərək istifadəyə verilib. Təzəkənd kəndi ərazisində modul tipli məktəb binası quraşdırılmışdır. Rayon ərazisində 34 məktəb və 9 uşaq bağçası binasına təbii qaz xətti çəkilib. Bundan başqa, məcburi köçkünlər üçün tikilmiş 20 evin 15-nə təbii qaz xətti çəkilərək istifadəyə verilib.

Ötən il Əhmədağalı kənd körpələr evi-uşaq bağçası əsaslı şəkildə təmir edilən binaya istilik sistemi çəkilib və həyəti abadlaşdırılaraq bağçaya asfalt yol çəkilib. Rayon icra hakimiyyətinin ərazisində üçmərtəbəli müasir üslubda layihələndirilmiş "Qonaq evi" binası inşa edilib. Evoğlu kəndində məskunlaşmış 3 şəhid anası Qənirə Əhmədovaya yeni üçotaqlı ev tikilərək lazımi mebellə təmin edilib. Bərdə şəhərində məcburi köçkünlərin yaşadığı dördmərtəbəli yaşayış binasında 15 ədəd ikiotaqlı və 3 ədəd birotaqlı mənzillər tam təmir edilərək köçkünlərin istifadəsinə verilib.

Sahibkarlığın inkişafı üçün rayonda aşkarlıq və şəffaflıq bərqərar olub, kənar müdaxilələrin qarşısına sipər çəkilib. Quzanlı qəsəbəsində Qurban Pirimov küçəsində sahibkarlığın inkişaf etdirilməsi və sakinlərin məşğulluğunun təmin olunması məqsədilə rayon icra hakimiyyəti tərəfindən torpaq sahələri ayrılmış və hazırda sahibkarlar tərəfindən həmin ərazidə tikinti işləri davam etdirilir. Eyni zamanda rayonun bütün kənd və qəsəbələrini əhatə edən 36 sahibkara sahibkarlıq obyektlərinin tikintisinə icazə verilərək fəaliyyət göstərmələri üçün münbit şərait yaradılıb.

Həmçinin, Eyvazlı kəndi ərazisində sahibkar Hafiz Tapdıqov tərəfindən kənd təsərrüfatı məhsullarının (süd məhsullarının) emalı müəssisəsi tikilərək istifadəyə verilib və müəssisədə 15 nəfər işlə təmin olunub. Quzanlı qəsəbəsi ərazisində gündəlik 100 kvadratmetr istehsal gücünə malik yeni tipli tamet sexi istifadəyə verilmiş və hazırda burada 10 nəfər işləyir.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün Quzanlı qəsəbəsində 50 mənzilli binanın tikintisinə başlanılıb. Bundan başqa, rayon ərazisində məskunlaşmış 1440 məcburi köçkün ailəsinin evlə təmin olunması üçün 320 ikiotaqlı, 1040 üçotaqlı, 80 dördotaqlı yeni qəsəbənin tikintisi nəzərdə tutulub. Qəsəbənin tikintisi üçün Quzanlı qəsəbə ərazisində 18,6 ha torpaq sahəsi ayrılıb və sənədləşmə işləri aparılır.

Xalqımız ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini həmişə minnətdarlıqla yad edir. Ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin fəaliyyətində məcburi köçkünlərə diqqət və qayğı əsas yerlərdən birini tutur. Məcburi köçkünlər bu qayğını çox yüksək qiymətləndirirlər.

Aşkarlıq, ədalət olan yerdə uğurlu nəticələr əldə olunur, insanlarda sabaha, gələcəyə dərin inam yaranır. Adamlara sarı atılan hər bir xeyirxah addım təbii ki, cavabsız qalmır, həmrəyliyə, dialoqa, səmimiyyətə geniş qapı açır.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov demək olar ki, hər gün məcburi köçkünlərin sıx məskunlaşdıqları ərazilərdə olur, həmyerlilərinin üzləşdikləri problemlərin həll edilməsinə çalışır. Məhz buna görə də respublikanın 58 rayon və şəhərində məskunlaşan laçınlı məcburi köçkünlər rayon rəhbərliyinin diqqət və qayğısından həmişə razılıq edirlər.

Göründüyü kimi, rayonda həyatın bütün sahələrini əhatə edən köklü işlər görülür, Ağdamın ötən əsrin 70-80-ci illərindəki şöhrəti bərpa edilir. Ağdamlılar sabaha nikbin nəzərlərlə baxırlar. Onlar inanırlar ki, Ermənistan tərəfindən işğala məruz qalan ərazilər azad ediləcək və bu haqq yolunda əli silah tuta bilən hər kəs Ali Baş Komandanın hücum əmrini gözləyir.

**Salman ALIOĞLU,**
**"Respublika".**